Əl işdən soyumaz, ürək arzudan...



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 64-65
(7392-7393) Bazar ertəsi, 17 oktyabr 2016-cı il. Qiyməti 40 qəpik


# Azərbaycanın inkişaf yolu davam edəcək və islahatlar daha geniş miqyas alacaq

***Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabr ayının 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib. Dövlət başçısı iclası giriş nitqi ilə açmış və çıxışlardan sonra geniş yekun nitqi söyləmişdir.

Ölkə başçısı çıxşında qlobal iqtisadi böhran dövründə Azərbaycanın əldə etdiyi iqtisadi uğurlar, böhranla mübarizədə həyata keçirilən islahatlar, beynəlxalq miqyasda reallaşdırılan layihələr, xarici dövlət və təşkilatlarla bərabərhüquqlu əməkdaşlıq əlaqələri, eləcə də ölkədə keçirilən referendum və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlardan söhbət açıb, ölkə və dünya ictimaiyyətinə bir sıra vacib mesajlar verib.

Azərbaycanın müstəqil siyasət yürütdüyünü, öz sözünü dediyini, bütün məsələlərlə bağlı prinsipial mövqe nümayiş etdirdiyini, heç kəsin qabağında əyilmədini bildirən dövlət başçısı qeyd edib ki, Azərbaycanda sülh, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, insanlar rahat yaşayır, quruculuq işləri aparılır:

Ölkəmizin müxtəlif beynəlxalq təşkilatlarda çox böyük rol oynadığını, Azərbaycanın Avropa ilə sıx əlaqələr qura bildiyini deyən prezident qeyd edib ki, Azərbaycanla Avropa İttifaqı arasında müxtəlif sənədlər imzalanıb, növbəti sənəd üzərində də iş aparılır: "Azərbaycan 15 ildir ki, Avropa Şurasında üzvdür və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, Azərbaycana qarşı ədalətsizliklər, ikili standartlar olub".

İslam Əməkdaşlıq Təşkilatı builki Zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrup yaradılıb, Azərbaycanın ərazi bütövlüyünə bir daha dəstək ifadə olunub. BMT-dən sonra ən çox üzvü olan Qoşulmama Hərəkatının Zirvə görüşündə də növbəti dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qərar qəbul edilib. Bu, böyük diplomatik və siyasi uğurdur. Avropa Parlamenti tərəfindən səslənən rəsmi bəyanatda da Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli mövqe nümayiş etdirilib".

Ölkə başçısı deyib ki, bu məsələnin həll olunmaması BMT Təhlükəsizlik Şurasına da şərəf gətirmir: "BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə 20 ildən çoxdur ki, icra edilmir".

Azərbaycanın heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə imkan verməyəcəyini deyən İlham Əliyev bildirib ki, bağlı qapılar arxasında Azərbaycan iqtidarına təzyiqlər göstərilir ki, Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin. Nə qədər ki, biz iqtidardayıq, heç vaxt Azərbaycan buna razılıq verməyəcək, Dağlıq Qarabağ bizim ayrılmaz tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik.

Cənab Prezident 9 ay ərzində iqtisadi sahədə görülən işlərdən danışarkən demişdir ki, neftin qiymətinin aşağı düşməsi ilə bağlı dövlət investisiyaları azaldı, tikiniti sektoruna az sərmayə qoyuldu və bu, müəyyən qədər tənəzzülə gətirib çıxardı. Lakin sənaye istehsalı artır. Doğrudur, sənaye potensialı az artırsa da (0,2 faiz), amma artır. İqtisadiyyatın qeyri-neft sektorunda 3,6 faiz, kənd təsərrüfatında 2,4 faiz artım vardır. Kənd təsərrüfatı üzrə aparılan işlər yaxın gələcəkdə daha böyük həcmdə nəticə verəcəkdir.

Sosial sahədə görülən işlərdən misallar söyləyən cənab Prezident qeyd etmişdir ki, böhranlı illərdə bu göstəricilər xüsusi bir göstəricilərdir. Ümumiyyətlə 2016-cı ildə nəticələr bütövlükdə yaxşıdır.

* * *

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı giriş nitqindən sonra Baş nazirin müavini, qaçqınların və məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, səhiyyə naziri Oqtay Şirəliyev, təhsil naziri Mikayıl Cabbarov rəhbərlik etdikləri sahələr üzrə görülən işlərdən və qazanılan uğurlardan danışmışlar.

* * *

Cənab Prezident çıxışlardan sonra iclasda yekun nitqi söyləmişdir. Ölkə başçısı ilin sonuna kimi infrastruktur layihələrin tam həcimdə icra olunması, təməli qoyulmuş islahatların davam etdirilməsi, ölkədə biznes mühitinin yaxşılaşdırılması, süni qiymət artırılmasına yol verilməməsi, sənayenin, kənd təsərrüfatının bütün sahələrinin, ümumiyyətlə qeyri-neft sektorunun inkişafı üçün başlanmış olan işlərin davam etdirilməsi, nəqliyyatın inkişafına, yük daşımalarına xüsusi diqqət verilməsi kimi məsələlərə toxunmuşdur. Cənab Prezident eyni zamanda çıxışında maliyyə-bank sistemində şəffaflığın təmin olunması üçün lazımi tədbirlərin görülməsini vacib saymışdır.

Ölkə başçısı çıxışının sonunda əmin olduğunu bildirmişdir ki, 2016-cı il uğurla başa vurulacaq, 2017-ci ildə də qarşıya qoyulan bütün vəzifələr icra olunacaqdır.

***(Prezidentin giriş və yekun nitqləri, çıxışlar mərkəzi mətbuatın səhifələrində dərc olunmuşdur).***

***"Qəbələ".***

## *18 oktyabr–Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günüdür*

# Mustəqilliyimiz əbədi və sarsılmazdır

Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik qazanmaq, özünün suveren dövlətini qurmaq imkanı qazandı. Təəssüf ki, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti xarici müdaxilə və daxili çəkişmələr səbəbindən 1918-ci ildə qazandığı müstəqilliyini 23 aydan sonra itirdi. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. Çətin yollardan keçməklə 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdi. Həmin ilin oktyabr ayının 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında «Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. İndi respublikamız bu yolda inamla irəliləyir.

Ulu öndərimiz Heydər Əliyevin dediyi kimii: «Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi ötən əsrin 80-cı illərinin birinci yarısından başlayaraq keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi. Xalqın gözəl arzularına məhz bu vaxt şərait yaranmışdır».

Çox təəssüf ki, müstəqilliyin bərpasının ilk illərində əbədi və əzəli düşmənimiz olan ermənilərin fitvası və təcavüzkar siyasəti nəticəsində itkilərimiz çox oldu. Erməni daşnakları güclü havadarlarının köməyi ilə torpaqlarımızı işğal etdilər, işğal olunan ərazilərdə görünməmiş azğınlıq, vəhşilik törətdilər. Bir milyon soydaşımız əzəli torpaqlarımızdan, dədə-baba yurd-yuvalarından qaçqın-köçkün düşdülər. Daxili düşmənlər, bacarıqsız vəzifə düşkünləri də ölkədə özbaşnalığa rəvac verdilər. Lakin xalqın təkidli tələbi ilə yenidən respublika rəhbərliyinə qayıdan xilaskarımız Heydər Əliyevin dönməz qətiyyəti ilə bütün çətinliklər dəf olundu, çoxsaylı terror və dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. İndi respublikmızda sabitlik və əmin-amanlıq var.

Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyevin fəaliyyətini xalq bəyənir və dəstəkləyir. Onun daxili və xarici siyasəti xalqımızın xoşbəxt gələcəyinə inam yaradır. Yaranan şəraitdən səmərəli istifadə edərək ölkəmizin daha da inkişaf etməsinə və çiçəklənməsinə gündəlik işi, xoş əməli ilə töhfə vermək hər bir azərbaycanlının şərəfli vəzifəsi, vətəndaşlıq borcudur.

**✍ Aslan CƏLİLOV.**
***«Qəbələ».***